Heç kəs unudulmur

Vətən müharibəsi fədailəri

Şəhid Şöhrət Mikayılovun ailəsi evində ziyarət olunub

Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin əməkdaşları Vətən müharibəsi şəhidi Şöhrət Mikayılovun ailəsini evində ziyarət edərək ailənin mövcud problemləri ilə maraqlanmışlar. Şöhrət Mikayılovun hərbi əməliyyatlarda göstərdiyi igidliyə, vəzifə borcunu və döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən təltif edildiyi "Şücaətə görə" medalı şəhidin atasına təqdim edilmişdir. Valideynləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlarlıqlarını bildirmişlər.

Şəhidlərin xatirəsinə

Çuxur Qəbələ kəndində şəhid Şirinov Talehin xatirəsinə kənddə ucaldılmış bulaq kompleksinin, Qəbələ şəhər sakini Elməddin Mustafayevin xatirəsinə təhsil aldığı 4 saylı məktəbin həyətində hazırlanmış bulaq kompleksinin, Bum qəsəbəsində şəhid Vasif Süleymanovun xatirəsinə həsr olunan bulaq kompleksinin açılış mərasimi tədbirləri kekçirilmişdir.

Şəhid Taleh Şirinovun xatirəsinə ucaldılmış Şəhidlər bulağı.

Şəhid Elməddin Mustafayevin xatirəsinə ucaldılmış bulaq kompleksi.

Şəhid Vasif Süleymanovun xatirəsinə ucaldılmış bulaq kompleksi.

Rahat uyu, Rüstəm bala...

Birlik məqamı

44 gün... Torpaq həsrətilə döyünən, yanar ürəkləri tələtümə gətirən, düşmənə qarşı bütün kinin, küdurətin çoşub-daşdığı 44 gün. General Polad Həşimovun ölümü, Polad sevgisi, Vətən sevgisi, düşmənə nifrətin son həddi oldu 44 gün.

Azərbaycan oğulları, Dövlət və Millətin birliyi 44 gün ərzində görünməz və qırılmaz tellərlə birbirinə bağlandı, mənfur düşmənin bir ağır gürz kimi başına endi. Xalqımız tərəfindən belə ağır həmlə gözləməyən mənfur düşmən özünü tamam itirərək dinc əhaliyə qarşı qadağan olunmuş silahlar işlətdi və bununla da özünün insani dəyərlərə yad olan xislətini bir daha dünyaya sübut etdi.

Artıq susmaq vaxtı deyildi. Ali Baş Komandanın ağır yumruğu, Vətən fədailərinin nifrəti, kini ilə birləşib qalxmışdı havaya. Vaxt ikən mənfur ermənininin başı ilan başıtək əzilməli idi. İgid oğullar Polad Generalın, 30 ilə yaxın bir müddətdə düşmən tərəfindən qətlə yetirilən, dinc əhalinin tökülən qanını, illərdir düşmən ayağı altında inləyən torpağın azad edilməsi üçün can fəda etməyin vaxtının çatdığını dərk edərək, nifrətlə ayağa qalxmışdı. Bütöv (o taylı, bu taylı) Azərbaycan ayaqda idi. Vətənə bağlı oğullar cəbhəyə can atır, könüllü olaraq döyüşə gedirdi. Bu günlər Qəbələmizin də vətənpərvər oğulları səfərbər olmuş, yüzlərlə Vətən fədailəri ayağa qalxmışdı. Bu oğullardan biri də Tüntül kəndində dünyaya göz açmış, damarlarında türk qanı axan, nifrətini silaha çevirib cəbhəyə gedən Rüstəm Zahid oğlu Atakişiyev idi.

Oktyabrın 23-ü 44 günlük müharibədə şəhid olan Rüstəm Zahid oğlu Atakişiyevin anım günü idi. Anım gününə yığılmışdı el-oba.

Kimdi şəhid Rüstəm?

Rüstəm 2000-ci ilin dekabr ayının 24-də Tüntül kəndində kasıb bir ailədə dünyaya göz açmışdı. Cərəyan edən hadisələr 21 yaşlı gəncin ürəyində Vətən sevgisini, neçə illərdir ürəklərdə nisgilə çevrilən yurd sevgisini, Qarabağ həsrətini daha da artırmışdı. Bu həsrət, bu istəklə döyüşə atılan Rüstəm bütün kinini, nifrətini mərmilərə doldurarak düşmən üzərinə gedir. Bir amalı, bir istəyi var idi Rüstəmin: Vətənin azadlığı, tökülən qanların qisasının alınması, uduzmuş bir xalqın başını yenidən qaldıraraq düşmənə yerini bildirməsi, əbədi torpaqlarımızın düşməndən azad edilməsi, şəhidlərimizin qisasının alınması.

Evdən ayrılarkən valideynlərindən halallıq alaraq cəbhəyə gedir, sanki şəhid olacağını hiss edirdi, hər dəfə valideynləri ilə danışanda yaxşı olduğunu bildirir, tezliklə qalib gələcəklərini söyləyir. Döyüşdə yoldaşları ilə birlikdə igidliklə vuruşan Rüstəm döyüşlərin birində igidliklə də şəhid olur. Şəhidlik hər bir kəsə nəsib olmur. Şəhidlik Allah tərəfindən seçilmiş, Tanrısına, Vətəninə, elinə, obasına bağlı insanların qismətinə düşür. Bu qismətdə Rüstəmin də payı var imiş.

Sevgi toplumu

23 oktyabr 2021-ci il... Şəhid Rüstəmin anım günü. İzdihama baxıram... Nə qədər insan Rüstəmin anım gününə yığılıb. Kimlər var burada, İlahi? Bütün orqan işçiləri, idarə təşkilat rəhbərləri, şəhid ataları, şəhid anaları, müəllimlər, məktəblilər və gənclər Rüstəmin anım gününə yığışıb.

Qara örpəkli şəhid anaları şəhid məzarının ətrafına yığılıb, hər bir ana öz övladı kimi Rüstəmin baş daşını sığallayır, sanki məzardakı Aqşin, Azər, Mikayıl, Ümman, Adəm, Elnur, Ruslan, Qoşqar, Ağaşirin və digər şəhidlərdir. Sanki analar öz şəhid balalarına ana əllərinin sığalını çəkirlər.

Anım gününə getməzdən əvvəl yazdığım şeirin iki bəndi yadıma düşdü:-

Qələbədən qələbəyə getmisən
Düşmənini yerlə yeksan etmisən,
Can şirindir, sən canından keçmisən,
Bu həyatdan əl üzsən də ay Rüstəm,
Məzara yox , qəlbimizə köçmüsən.

Rənayam, mən yanıb bağrım kül olub,
Şəhidlərçün göz yaşlarım sel olub,
Adlarınız ürəyimə həkk olub,
Sanmayın ki, siz həyatdan köçmüsüz,
Məzara yox, qəlbimizə köçmüsüz.

Dərin bir hüznlə məzarlıqdan ayrılırıq. Rahat uyu, şəhidim! Sizin hünərinizlə, rəşadətinizlə, Vətənə olan sevginizlə, qorxmaz və dönməz iradənizlə "Dəmir yumruq"un birləşməsi Vətəni və vətəndaşı ucalara qaldırdı, məğlub xalq adını üzərimizdən götürdü, Azərbaycanı qalib xalq kimi dünyaya tanıtdı. Rahat yat şəhidim, sizin adınız 10 milyonluq xalqın sinəsində yaşayır. Şəhidlər ölmür, şəhidlər ürəklərdə məskən qurub, əbədi yaşayır. Allah rəhmət eləsin.

Rəna MAHMUDOVA (AZAXLI),
Qəbələ şəhəri.

Hər şəhidin adıyla

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı və onun rəşadətli silahlı qüvvələri çox qısa zamanda 30 il işğal altında olan ərazilərimizi 44 günə azad etdi. Bu sarsıdıcı zərbə- Dəmir yumruq- erməni qəsbkarlarını bir daha revanişt düşüncəyə gətirə bilməyəcəkdir. Düşmən məvh edilib. Lakin bu azadlıq, Vətən müharibəsində Vətən torpaqlarının azad olmasında acılarımız da oldu. Şəhid və qazilərimiz Vətən qarşısında borclarını ləyaqətlə yerinə yetirdilər. Şəhidlərin xatirəsi heç vaxt yaddan çıxmayacaqdır. Daşca və Zarağan kənd sakinləri şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək üçün kənd yolunun kənarına Zəfər bayramına töhvə olaraq 44 cökə ağacı əkiblər. Hər bir ağac şəhidlərin adları ilə adlandırılıb. Daima böyüyən, yaşıllaşan cökə ağacları şəhidlərimizin xatirəsini əbədi yaşadacaqdır.

Cökə ağaclarının əkilməsi üçün yol kənarlarında görülmüş işlərə görə 10 saylı Qəbələ suvarma idarəsinin əməkdaşlarına təşəkkür edirik.

Teyfur ƏSƏDOV,
Daşca kənd sakini.